## 2016-cı ilin xronikası

26 yanvar tarixində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Beynəlxalq ticarət sövdələşmələri və sənədləşmə” mövzusunda seminar keçirilmişdir. Tədbirin açılışında çıxış edən Ümumdünya Gömrük Təşkilatının Avropa Regional Ofisinin rəhbəri Roger Herman rəhbərlik etdiyin ofisin fəaliyyəti barədə qısa məlumat verib və seminarın əhəmiyyətindən bəhs edmişdir. Seminarda çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev iştirakçıları salamlayaraq tədbirin “Beynəlxalq gömrük günü”nə təsadüf etməsinin xoş bir hal olduğunu qeyd edmişdir. Səfər Mehdiyev Ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin elmə, təhsilə verdikləri önəmdən bəhs edərək Azərbaycan gömrüyünün də gömrük işinin təşkili sahəsində elmi biliklərin tətbiqi ilə bağlı mühüm addımlar atdığını vurğulamışdır. Səfər Mehdiyev Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi ilə Dövlət Gömrük Komitəsi arasında əməkdaşlığın müvəffəqiyyətlə davam etdiyini və şəbəkənin Bakıdakı Regional Ofisinin təşkilatçılığı ilə keçirilən bu tədbirə Azərbaycanın aparıcı təhsil ocaqlarının cəlb olunmasının gömrük işi sahəsində biliklərin daha da möhkəmlənririlməsinə öz faydasını verəcəyini bildirmişdir.



10-11 fevral tarixlərində Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) çərçivəsində Beynəlxalq Yük Daşımaları Kitabçası tətbiq etməklə Beynəlxalq Yük Daşımaları haqqında Gömrük Konvensiyasının (TİR) İnzibati Komitəsinin (AC.2) 63-cü sessiyası keçirilmişdir. Sessiyada Azərbaycan nümayəndə heyəti də iştirak edir. Sessiyada konvensiyanın İnzibati Komitəsinin sədrliyinə seçkilər keçirilmiş və Dövlət Gömrük Komitəsi sədrinin müavini Şahin Bağırov İnzibati Komitənin sədri seçilmişdir. 1975-ci ildə imzalanmış Beynəlxalq Yük Daşımaları Kitabçası tətbiq etməklə Beynəlxalq Yük Daşımaları haqqında Gömrük Konvensiyası hazırda yeganə qlobal tranzit sistemidir və ölkələrdə konvensiyanın tələbləri əsasında beynəlxalq tranzit prosedurlarının və gömrük tənzimlənməsi məsələlərini əhatə edir.

12 fevral tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Səfər Mehdiyev Azərbaycanla Koreya arasında mövcud əlaqələrdən söhbət açmış, əməkdaşlıq münasibətlərinin müxtəlif sferalarda, o cümlədən, gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu və bu imkandan maksimum yararlanmağın vacibliyini vurğulamışdır. O, istər büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, xüsusilə qanunvericilik bazasının möhkəmləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir.

**15 fevral** tarixində Dövlət Gömrük Komitəsinin Avtonəqliyyat Baş Gömrük İdarəsində "Gömrük orqanlarında risklərin idarə olunması" mövzusunda seminar keçirilmiçdir. Türkiyə təcrübəsinin öyrənilməsinə həsr edilən seminar "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin 2016-2017-ci illərdə gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığının və qarşılıqlı yardımının səmərəliliyinin yüksəldilməsi üzrə ikitərəfli Tədbirlər Planı"nın icrası məqsədilə təşkil olunmuşdur.

**15-17 fevral** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində "Sərnişinlərə dair ilkin məlumatlar, sərnişin adlarının qeydiyyatı" mövzusunda seminar keçirilmişdir. Ümumdünya Gömrük Təşkilatının təşkil etdiyi seminarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Dövlət Mülki Aviasiya Administrasiyası və Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları iştirak etmişlər. Seminarda əldə olunacaq bilik və təcrübənin sərnişinlərin əl yüklərinin qısa vaxtda gömrük nəzarətindən keçirilməsində, təhlükəsizliyin təmin olunmasında, eləcə də terrorizmlə mübarizədə, narkotik vasitələrin, silahların və digər qadağan olunmuş malların gömrük sərhədindən keçirilməsinin qarşısının alınmasında mühüm rol oynayacağı vurğulanmışdır.



**2 mart** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə daimi nünayəndəsi Aliyə Əzimovanı, İnvestisiya mühiti üzrə tapşırıq qrupunun rəhbəri İrina Kokayanı və Ticarətin dəstəklənməsi üzrə regional koordinator Violan Konar-Lisini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Səfər Mehdiyev Azərbaycan Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna qısaca nəzər salmış, istər qanunvericilik bazasının möhkəmləndirilməsində, büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, xüsusilə maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Son zamanlar gömrük sistemində aparılan islahatların daha da intensivləşdirildiyini söyləyən DGK sədrinin birinci müavini əldə olunan müsbət nəticələri də qonaqların diqqətinə çatdırmış, Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlərdən ətraflı bəhs etmişdir.

**14 mart** tarixində Azərbaycanda Amerika Ticarət Palatası və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkil etdiyi "Gömrük sistemində inkişaf və gələcək perspektivlər" mövzusunda konfrans keçirilmişdir. Konfransda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, Komitə sədrinin müavinləri və baş idarə rəisləri, Azərbaycanda Amerika Ticarət Palatasının prezidenti İlqar Vəliyev və Palatanın üzvü olan şirkətlərin nümayəndələri iştirak etmişlər. Giriş sözü ilə çıxış edən Azərbaycanda Amerika Ticarət Palatasının prezidenti İlqar Vəliyev konfransın əhatə etdiyi

mövzunun önəmini vurğulayıb və bu kimi görüşlərin ümumi işə faydasını, eləcə də gömrük xidməti və özəl sektor arasında işgüzar münasibətlərin dərinləşməsində mühüm rol oynadığını nəzərə çatdırmış, konfransın gömrük-biznes sahəsində qarşıda duran vəzifələri bir daha müəyyənləşdirmək və inkişaf yollarını aramaq işinə töhfə verdiyini bildirmişdir.

16-17 mart tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankara şəhərində işgüzar səfərdə olmuşdur. Səfərin məqsədi Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyində Azərbaycan və Türkiyə arasında gömrük sahəsində mövcud əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı danışıqlar aparmaq olmuşdur. Baş tutan ikitərəfli görüş zamanı ticarətin təhlükəsizliyini təmin etmək məqsədilə iki ölkə arasında hərəkət edən mal və nəqliyyat vasitələri üçün "sadələşdirilmiş gömrük dəhlizi"nin tətbiq edilməsi məqsədilə memorandum layihəsinin hazırlanması barədə razılıq əldə edilmişdir. Bundan başqa, mal və nəqliyyat vasitələri üzrə elektron məlumat mübadiləsinin həyata keçirilməsi məsələsi də müzakirə edilmiş və bu layihənin tətbiqilə bağlı hər iki ölkənin gömrük xidməti əməkdaşlarının birgə fəaliyyətinin zəruriliyi vurğulaaraq müvafiq iş qrafiki müəyyən edilmişdir.

18 mart tarixində Dövlət Gömrük Komitəsində Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndə heyətilə növbəti görüş keçirilmişdir. Xatıladaq ki, Azərbaycan və Gürcüstana səfər edən Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələri Bakıda müvafiq qurumların iştirakı ilə "Biznesin aparılması metodologiyasında yeniliklərin çatdırılması" mövzusunda seminar keçirmişlər. Azərbaycana səfərləri çərçivəsində Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələri ölkəmizin gömrük orqanlarında həyata keçirilən yeniliklər barədə məlumat almaq üçün Komitə rəhbərliyilə də görüşüblər. Nümayəndə heyətilə növbəti görüşdə isə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov qonaqlara Gömrük Məcəlləsi, gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlər və onların sayı, gömrük prosedurları, gömrük işinin təşkilində informasiya texnologiyalarının tətbiqi, Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi barədə ətraflı məlumat vermişdir.

30 mart tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Floresi qəbul etmişdir. Görüşdə Azərbaycan-Meksika əlaqələrinin hazırki durumu, mövcud imkanlar və gələcək perspektivlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. O, iki ölkənin istər iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrindən söhbət açmış, əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir.

30 mart tarixində Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyətinin (TÜSİAB) Bakı şəhərindəki ofisində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə işadamları arasında görüş keçirilib."Gömrük islahatları:yeniliklər və perspektivlər" mövzusunda keçirilən görüşdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, komitə sədrinin müavinləri və baş idarə rəisləri, TÜSİAB sədri Yavuz Keleş, cəmiyyətin üzvləri və Azərbaycanda fəaliyyət göstərən türkiyəli iş adamları iştirak edib.
Tədbirin əvvəlində TÜSİAB-ın fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Görüşdə çıxış edən TÜSİAB sədri Yavuz Keleş təmsil etdiyi qurumun 22 ildir fəaliyyət göstərdiyini və cəmiyyətin fəaliyyəti üçün ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə və onun ideyalarının sadiq davamçısı Prezident İlham Əliyev tərəfindən daim münbit şərait yaradıldığını bildirdi. Göstərilən dəstəyə görə Azərbaycan dövlətinə, onun rəhbərliyinə minnətdarlığını ifadə edən Yavuz Keleş Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühitinin və sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatları dəstəklədiklərini və bu islahatların türkiyəli iş adamlarının daha da səmərəli fəaliyyəti üçün mühüm imkanlar yaratdığını vurğuladı.

30 mart tarixində Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin Ankara ofisinin əməkdaşları ilə görüş keçirilib. Görüşdə Gömrük Hüquqpozmalarına Qarşı Mübarizə Baş İdarəsinin nümayəndələri və ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsinin Ankara ofisinin əməkdaşları iştirak edib. İşritarkçılara cari ilin mart

ayında Azərbaycan gömrük xidmətinin həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində İran İslam Respublikasından, Azərbaycan vasitəsilə tranzit yolla keçməklə Ukraynaya aparılan 486 kq 698,88 qram heroinin aşkar edilməsi ilə bağlı qonaqlara məlumat verilmidir. Görüşdə qarşılıqlı əməkdaşlığın istiqamətləri, aşkar edilən narkotrafik marşrutları, Bakı-Tbilisi-Qars dəmiryolunun və Ələt qəsəbəsində tikintisi davam etdirilən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının gələcəkdə istismara verilməsi ilə əlaqədar gömrük hüquqpozmalarına qarşı mübarizənin daha effektiv təşkili, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılmışdır.

**4 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Şərqi Avropa, Mərkəzi Asiya və Qafqaz ölkələrinin təyin olunmuş operatorları üçün Poçt və Gömrük məsələlərinə dair Ümumdünya Gömrük Təşkilatı və Ümumdünya Poçt İttifaqının seminarı" keçirilmişdir. Seminarda Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Ukrayna, Moldova, Belarus, Gürcüstan və Azərbaycandan nümayəndə heyətləri iştirak etmişdir. Tədbirin açılışında çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov qonaqları salamlayaraq seminarin əhəmiyyətindən danışmışdır. O bildirmişdir ki, bu seminar qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, poçt göndərişlərində təhlükəsizliyin təmin edilməsi, gömrük yoxlamalarının sürətləndirilməsi və asanlaşdırılması, əvvəlcədən məlumat mübadiləsinin həyata keçirilməsi və dünya təcrübəsinin öyrənilməsi sahəsində vacib bilik və bacarıqların əldə olunmasında mühüm rol oynayacaq.



**7 aprel** tarixində Bakıda ölkəmizdə fəaliyyət göstərən gömrük təmsilçiləri üçün "Avropa İttifaqının TAİEX aləti çərçivəsində gömrük təmsilçiliyi sisteminin funksiyalaşdırılması" mövzusunda seminar keçirilmişdir. Seminarda çıxış edən Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Cavad Qasımov bildirmişdir ki, dünyada gedən iqtisadi proseslər Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafında mühüm rol oynayan gömrük işinin təşkili sahəsində də yeni çağırışları ortaya qoyur və bu çağırışlara cavab olaraq Dövlət Gömrük Komitəsi bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirir. O, gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi, elektron bəyannamələrin tətbiqi, qanunvericilik və digər məsələlərin müzakirə olunacağı seminarın bu baxımdan önəmini xüsusi vurğulamışdır.

**11 aprel** tarixində Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyinin müstəşar müavini Rəmzi Akçinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olmuşdur. Nümayəndə heyəti öncə Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcədə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anmış, məzarları üzərinə gül dəstələri düzmüşdür. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını, həmçinin şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsini

ziyarət etmişdirlər. Sonra Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev nümayəndə heyətini qəbul etmişdir.

10 may tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Səlahiyyətli İqtisadi Operator üzrə Milli Seminar" keçirilmişdir. Tədbir Avropa İttifaqının TAIEX proqramı çərçivəsində keçirilmişdir. Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov səlahiyyətli iqtisadi operator institutunun Dövlət Gömrük Komitəsinin fəaliyyətində önəmli yer tutduğunu, gömrük qanunvericiliyində bu sahəyə xüsusi yer ayrıldığını bildirmişdir. Beynəlxalq ticarət zəncirinin güvən və etibarının artırılmasında, cinayətkarlığın aşkar edilməsi, qanunsuz daşımaların aradan qaldırılması, malların düzgün yüklənməsi və vaxtında təyinat məntəqəsinə çatdırılmasında səlahiyyətli iqtisadi operatorların mühüm rol oynadığını vurğulayan Şahin Bağırov biznes qurumlarının bu institutların fəaliyyəti və xüsusiyyətləri barədə məlumatlanmasının vacibliyini bəyan etmişdir.

18-19 may tarixlərində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti, Azərbaycan Respublikası və Seneqal Respublikası gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etmək məqsədilə Seneqal Respublikasında rəsmi səfərdə olmuşdur. Seneqal Respublikası Baş Gömrük İdarəsinin dəvəti ilə gerçəkləşən səfərin ilk günü Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevin Seneqal Respublikası Baş Gömrük İdarəsinin rəhbərliyi ilə görüşü keçirilmişdir. Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Seneqal Respublikası Baş Gömrük İdarəsinin baş direktoru Papa Ousmane Gueye Azərbaycan və Seneqal gömrük orqanları arasında dostluq və əməkdaşlığın gücləndirilməsinə göstərilən diqqət və yardımı yüksək qiymətləndirmişdir. Baş direktor Azərbaycan Gömrük Xidmətinin əldə etdiyi uğurların Seneqal tərəfində maraqla qarşılandığını, o cümlədən, azərbaycanlı həmkarlarının təcrübəsini öyrənməkdə və gömrük işinin bütün sahələrində əməkdaşlıqda maraqlı olduqlarını vurğulamışdır.



31 may tarixində Bakı Ali Neft Məktəbində "Multisektoral əməkdaşlıq: müasir dövrdə iqtisadiyyatın inkişafında gömrük xidmətinin rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Bakı Ali Neft Məktəbinin, Dövlət Gömrük Komitəsinin Akademiyasının və Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Bakı regional ofisinin birgə təşkilatçılığı ilə gerçəkləşən konfransın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov iştirak etmişdir. Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycanda gömrük işinin yaranmasının tarixindən danışmış və Azərbaycanın müstəqil gömrük sisteminin banisi ümummilli lider Heydər Əliyevin bu sahədəki əvəzolunmaz xidmətlərindən, Prezident İlham Əliyevin bu sahəyə

göstərdiyi dəstək və qayğıdan bəhs edib. Komitə sədri son dövrlərdə Azərbaycan gömrük sistemində həyata keçirilən mütərəqqi islahatlar və yeniliklərin ölkəmizlə yanaşı, regionun iqtisadi potensialının güclənməsi istiqamətində mühüm rol oynayacağını vurğulamışdır.



**3 iyun** tarixində Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Gömrük Xidməti Rəhbərlərinin 5-ci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə gömrük xidmətlərinin nümayəndələri iştirak etmişdir. Nümayəndə heyətləri öncə Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anmış, məzarları üzərinə gül dəstələri düzmüşlər. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını, həmçinin şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış Türk Şəhidliyi abidəsini ziyarət etmişlər. Daha sonra Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində iclas keçirilmişdir.



**16 iyun** tarixində Moldova Respublikasının Vadul-Luy-Vode şəhərində GUAM Ticarətə və Nəqletməyə Yardım Layihəsi üzrə Rəhbəredici Komitənin 24-cü iclası keçirimişdir. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev və Xarici Əlaqələr İdarəsinin rəisi Dilavər Fərzəliyev iştirak etmişlər. İclasın məqsədi GUAM Ticarətə və Nəqletməyə Yardım Layihəsi üzrə Rəhbəredici Komitənin 23-cü iclasının protokolunun həyata keçirilməsilə bağlı məsələləri müzakirə edilməsi olmuşdur. İclasda GUAM üzv dövlətlərinin sərhədlərini keçən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili haqqında bu dövlətlər arasında 8 iyul 2015-ci il tarixində imzalanmış protokolun həyata keçirilməsi çərçivəsində “Məlumat mübadiləsi sistemi üzrə texniki təminat sənədi” layihəsinin

razılaşdırlması üçün GUAM üzv dövlətlərinin gömrük orqanlarının informasiya texnologiyaları mütəxəssislərinin görüşünün nəticələri müzakirə olunmuşdur. Mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkilinin texniki şərtlərinin razılaşması müsbət rəylərlə qarşılanıb və həmin protokolun tezliklə həyata keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir.

24 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyətinin (TÜSİAB) sədri Cəlil Polatın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev ilk olaraq Cəlil Polatı Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyətinin sədri seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzulamışdır. Ölkəmizin bütün sahələrdə, o cümlədən iqtisadi sferada qardaş Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi önəm verdiyini qeyd edən Komitə sədri gələcəkdə qarşılıqlı münasibətlərin daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

24 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevlə Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri George Leuka ilə keçirilən görüşdə də Azərbaycan Moldova əlaqələrinin inkişaf dinamikası ətraflı müzakirə edilmişdir. Qonağı səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev iki ölkə arasında mövcud əlaqələrdən söhbət açmış və qeyd etmişdir ki, Azərbaycan-Moldova əlaqələrinin perspektivi böyükdür. DGK sədri Azərbaycanla Moldova arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən, gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır.

24 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzainin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan DGK sədri Aydın Əliyev BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıqdan, əlaqələrin gələcək perspektivlərindən bəhs etmişdir. Komitə sədri 1999-cu ildən icrasına başlanılan BMT İP və Azərbaycan Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsinin uğurla davam etdiyini məmnunluqla xatırlamış, bu layihənin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması sahəsində gömrük xidmətinin inkişafına olduqca müsbət təsirindən danışmışdır.



**29 iyun- 1 iyul** tarixlərində Qəbələ şəhərində “Gənclərin Dialoqu – Beynəlxalq gömrük əməkdaşlığının genişləndirilməsi yolu ilə potensialın artırılması” mövzusunda Beynəlxalq Tələbə Konfransı keçirilmişdir. Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsi önünə əklil qoyaraq, xatirəsini ehtiramla yad etmişlər. Konfransda dünyanın 20 ölkəsinin-Avstriya, Belarus, Belçika, Bolqarıstan, Çin, Makedoniya, Gürcüstan, Almaniya, Macarıstan, Litva, Niderland Krallığı, Polşa, Rusiya Federasiyası, Seneqal, İsveç, Türkiyə, Ukrayna, Amerika Birləşmiş Ştatları, Özbəkistan, Vyetnamın mötəbər universitetlərində gömrük ixtisası üzrə təhsil alan tələbələr, gömrük sahəsində ixtisaslaşan elm adamları, eləcə də dünyaca məşhur gömrük mütəxəssisləri iştirak etmişlər. Konfrans çərçivəsində “Beynəlxalq ticarət”, “Gömrük potensialının gücləndirilməsi”, “Gömrük risklərinin təhlili və idarə edilməsi”, “Ticarətin asanlaşdırılması üçün elektron gömrük xidmətləri” adı altında 4 sessiya keçiriləcək və müxtəlif ölkələrin elm ocaqlarını təmsil edən elm adamları və tələbələr tərəfindən ümumilikdə 50-dək məruzə dinlənilmişdir. Məruzələrin əhatə etdiyi konkret mövzulara gəlincə isə daxildə emal, daxili ekspress yüklərinə nəzarət, beynəlxalq iqtisadiyyatda beynəlxalq ticarət, qlobal maliyyə böhranının beynəlxalq ticarətə təsiri, gömrük üzrə ali təhsil sahəsində yeni istiqamət, elektron gömrüyün qlobal ticarətin asanlaşdırılmasında rolu, gömrük işinin konkret sahələri üzrə bəzi ölkələrin milli təcrübələri və digər başlıqlar altında dinləyicilərə məlumat verilmişdir.



**4 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevlə Rusiya Federasiyasının Azərbaycandakıfövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxini qəbul etmişdir. Görüşdə Azərbaycan Rusiya gömrük əməkdaşlığının inkişaf dinamikası ətraflı müzakirə edilmişdir. İki ölkənin gömrük orqanlarının qarşılıqlı əlaqələrindən məmnunluqla söhbət açılmış, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Rusiya əməkdaşlığının gələcək perspektivləri müzakirə olunmuşdur.

**15 sentyabr** tarixində Dövlət Gömrük Komitəsində Birləşmiş Millətlər Təşkilatının və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliklərinin rəhbər heyətləri ilə görüş keçirilmişdir. Görüşdə “Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək” layihəsinin icrası ilə bağlı məsələlər müzakirə olunmuşdur. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BMT-nin İnkişaf Proqramı və Avropa İttifaqı ilə əməkdaşlıqdan, əlaqələrin gələcək perspektivlərindən bəhs etmişdir. Adı çəkilən beynəlxalq qurumlarla hələ 1999-cu ildən bəri birgə gerçəkləşdirilən layihələrin bütövlükdə Azərbaycan Gömrük Xidmətinə xüsusi diqqət və qayğının təzahürü kimi qiymətləndirən Komitə sədrinin

birinci müavini, bundan sonra da qarşılıqlı fəaliyyətin, birgə əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu bildirmiş, eləcə də gömrük sistemində aparılan islahatlar barəsində qonaqlara ətraflı məlumat vermişdir.

**15 sentyabr** tarixində Belarus Respublikasının Minsk şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 64-cü iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. İclasda Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının sədri seçilib və müzakirə olunacaq məsələləri diqqətə çatdırılmışdır. Tədbirin gündəliyinə əsasən, Şuranın katibi MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 63-cü iclasında qəbul olunmuş qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında məlumat vermiş və bu barədə qərar imzalanmışdır. Sonda “Dəmir yolu nəqliyyatı ilə daşınan malların gömrük rəsmiləşdirilməsi və nəzarəti zamanı MDB üzv dövlətlərin gömrük orqanları və dəmir yolu administrasiyalarının qarşılıqlı fəaliyyətinə dair nümunəvi texnologiya” və “MDB üzv dövlətlərin gömrük orqanlarının informasiya sistemlərinin və resurslarının informasiya təhlükəsizliyinə dair nümunəvi tələblər” layihələri haqqında, eləcə də Müstəqil Dövlətlər Birliyinin Xarici İqtisadi Fəaliyyətinin Vahid Mal Nomenklaturasına dəyişikliklər edilməsi barədə qərarlar qəbul olunmuşdur.

**19 sentyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Ümumdünya Gömrük Təşkilatının Potensialın gücləndirilməsi üzrə Avropa Regional Ofisində əfqanıstanlı gömrükçülər üçün təşkil olunmuş seminarın açılışında iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn Əfqanıstan İslam Respublikası Gömrük Departamentinin Baş direktoru Əhməd Rəşad Popalı qəbul etmişdir. Görüşdə Azərbaycan-Əfqanıstan əlaqələrinin hazırki durumu, mövcud imkanlar və gələcək perspektivlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. Dövlət Gömrük Komitəsinin sədri iki ölkənin istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə əlaqələrindən söhbət açmış, əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir.

**19 sentyabr** tarixində Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Rusiya Federasiyası Federal Gömrük Xidmətinin “Domodedovo” Hava Limanı Gömrük İdarəsinin əməkdaşları ilə işçi görüşü keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev və aidiyyatı qurumların nümayəndələri, “Domodedovo” Hava Limanı Gömrük İdarəsinin rəis müavini Marat Murtuzəliyev, “Domodedovo” Hava Limanı Gömrük İdarəsinin yük şöbəsinin rəisi Sergey Aliferov və həmin şöbənin gömrük müayinəsi bölməsinin rəisi Dmitriy Lefter iştirak etmişdir. Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev Azərbaycan gömrüyündə həyata keçirilən islahatlar, tətbiq olunan innovasiya lahiyələri, VAİS sistemi və “bir pəncərə” prinsipi barədə qonaqları məlumatlandırmışdır.



20 sentyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi İdarəsinin direktor müavini xanım Brenda Mundianı və ÜGT-nin Ticarətin sadələşdirilməsinin tətbiqi proqramının koordinatoru xanım Johanna Torstromu qəbul etmişdir. Aydın Əliyev müstəqil Azərbaycanın gömrük sisteminin beynəlxalq təşkilatlarla, xüsusilə Ümumdünya Gömrük Təşkilatı ilə qarşılıqlı əlaqələrinə toxunmuş, əməkaşlığın hazırki vəziyyətindən razılıqla söhbət açmışdır. Artıq ÜGT-nin bir sıra beynəlxalq tədbirlərinə Azərbaycanın ev sahibliyi etdiyini, eləcə də ÜGT-nin Regional Tədris və Kinoloji mərkəzlərinin, Potensialın gücləndirilməsi üzrə Avropa Regional Ofisinin Azərbaycanda fəaliyyət göstərdiyini məmnunluqla diqqətə çatdıran Komitə sədri gələcəkdə də bu cür tədbirlərin respublikamızda keçiriləcəyinə ümidvar olduğunu bildirmiş, qarşılıqlı əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir.



3 oktyabr tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Kontrafakt və piratçılığa qarşı mübarizə" mövzusunda seminar keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dəstəyilə keçirilən seminar BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin birgə layihəsi olan "Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqram" layihəsi

çərçivəsində təşkil olunmuşdur. Tədbirdə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan gömrük xidmətlərinin nümayəndələri iştirak etişdir.

**11 oktyabr** tarixində Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) çərçivəsində Beynəlxalq Yük Daşımaları Kitabçası (BYD) tətbiq etməklə beynəlxalq yük daşımaları haqqında gömrük konvensiyasının İnzibati Komitəsinin (AC.2) 64-cü və Nəqliyyatla bağlı gömrük məsələləri üzrə işçi qrupun 144-cü sessiyaları keçirilmişdir. Sessiyalarda Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti generl-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. BYD İnzibati Komitəsinin (AC.2) 64-cü sessiyası Azərbaycanın sədrliyi ilə keçirilmişdir. Sessiyada Konvensiyanın müddəalarının icra vəziyyəti, ayrı-ayrı maddələrə düzəlişlərlə bağlı təkliflər və digər hüquqi məsələlər müzakirə edilmişdir.

**17-18 oktyabr** tarixlərində Tehran şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının Gömrük Ekspertləri Alt Komitəsinin 3-cü iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti iştirak edib.İclasın ilk iş günündə əvvəlki toplantıların qərarları nəzərdən keçirilmiş, İƏT-in gömrük işi üzrə müqavilələrinə - "Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İqtisadi Əməkdaşlıq Təşkilatının məlumat bazasının yaradılması və fəaliyyəti barədə" və "Gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında" sazişlərə qoşulmaqla bağlı cari vəziyyət müzakirə olunmuşdur.




**19 oktyabr** tarixində Tehran şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının Gömrük Xidməti Rəhbərləri Şurasının 7-ci iclası keçirilmişdir. Tədbirə Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkiyə və Türkmənistan gömrük xidmətlərinin nümayəndələri qatılmışdır. İclasda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil eetmişdir. Toplantının açılış mərasimində İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə naziri Əli Tayebnia, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Xəlil İbrahim Akça, Ümumdünya Gömrük Təşkilatı Baş katibinin müavini Sergio Mujika və İran hökumətinin yüksək vəzifəli nümayəndələri iştirak etmişlər. Tədbirdə Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev və Dövlət Gömrük Komitəsi Xarici Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Dilavər Fərzəliyev iştirak ediblər. Tədbirdə məqsəd GUAM-ın Ticarətə və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsilə bağlı məsələləri müzakirə etmək olmuşdur. İclasda GUAM-ın Ticarətə və Nəqletməyə Yardım layihəsi üzrə Rəhbəredici Komitəsinin 24-cü iclasının Protokolunun həyata

keçirilməsinin vəziyyəti, eləcə də sözügedən layihənin həyata keçirilməsi haqqında üzv dövlətlərin məlumatları dinlənilmişdir.

**11 noyabr** tarixində Sədərək Gömrük İdarəsində Azərbaycan və Türkiyə gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə Azərbaycan tərəfdən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov, Türkiyə tərəfdən isə Dilucu Gömrük İdarəsinin rəisi Məsut Koç və digər rəsmi şəxslər iştirak etmişdir. Görüşdə Türkiyənin digər sahələrdə olduğu kimi xarici ticarət siyasətində də Azərbaycan üçün öncül yerlərdən birini tutmasından, iki ölkə arasında ticarət dövriyyəsinin, qarşılıqlı investisiya qoyuluşunun ilbəil artmasından məmnunluqla bəhs olunmuşdur.

**22 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə Estoniya Vergi və Gömrük İdarəsinin baş direktoru Marek Helm arasında görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Səfər Mehdiyev Azərbaycanla Estoniya arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrdən söhbət açıb, əməkdaşlıq əlaqələrinin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Müstəqil Azərbaycanın gömrük xidmətinin keçdiyi inkişaf yoluna qısaca nəzər salan Komitə sədrinin birinci müavini istər büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışıb, son vaxtlar gömrük sahəsində həyata keçirilən islahatlar, o cümlədən, elektron gömrük bəyannaməsinin tətbiqi və "Yaşıl dəhliz" buraxılış sisteminin yaradılması barədə ətraflı məlumat verilmişdir.

**5 dekabr** tarixində Moskva şəhərində Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 76-cı sessiyası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Sessiyanın açılış mərasimində Rusiya Federasiyası Baş nazirinin birinci müavini İqor Şuvalov iştirak etmişdir. İqor Şuvalov sessiya iştirakçılarını salamlayaraq, onlara səmərəli və məhsuldar iş arzulayıb. Baş nazirin birinci müavini əmin olduğunu bildirmişdir ki, Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 76-cı sessiyası qarşıya qoyulan məqsədlərə çatacaq, eləcə də gömrük əməkdaşlığının möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.



**6 dekabr** tarixində Dövlət Gömrük Komitəsində Asiya İnkişaf Bankının nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı çərçivəsində regional tranzit ticarətinin inkişafı üzrə texniki

məsələlər müzakirə edilimişdir. Müzakirə zamanı Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi İqbal Babayev Dövlət Gömrük Komitəsi tərəfindən son dövrlərdə həyata keçirilən layihələr barədə məlumat vermişdir, Prezident İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar hesabına gömrük işinin səmərəli təşkili sahəsində mühüm addımlar atıldığını vurğulamışdır.

**13 dekabr** tarixində Azərbaycan Respublikasının Astara şəhərində İran İslam Respublikası və Azərbaycan Respublikası gömrük orqanlarının nümayəndələri arasında növbəti görüş keçirilimişdir. Tədbir Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Mərkəzi Gömrük İdarəsi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən təşkil olunmuşdur. Görüşdə Azərbaycan tərəfdən Astara Gömrük İdarəsinin rəisi Sücəddin Hüseynov və İran tərəfdən Astara Gömrük İdarəsinin rəisi Rəsul Omidiyin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak etmişlər.

19-23 dekabr tarixlərində Ukraynanın Sxodnitsa qəsəbəsində Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM üzv dövlətləri gömrük xidməti rəhbərlərinin görüşü keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. GUAM üzv dövlətləri gömrük xidməti rəhbərlərinin görüşündə son illər ərzində gömrük əməkdaşlığının nəticələri təhlil olunmuş, GUAM üzv dövlətlərinin sərhədlərini keçən sərnişinlər, mallar və nəqliyyat vasitələrinə münasibətdə gömrük prosedurlarının asanlaşdırılması üçün birgə səylərin istiqamətləri müəyyənləşdirilmişdir. Görüşdə GUAM üz dövlətlərinin tranzit potensialını reallaşdırmaq və qarşılıqlı ticarəti təşviq etmək barədə məsələlərə də baxılmışdır.